*T.Tağıyeva. Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənc nəslin tərbiyəsində rolu // Əlyazmalar yanmır, 2023, №1 (16), s. 14-20.*

UOT: 930.85; 94(479.24)

**Təhminə Tağıyeva**
*AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
*e-mail: tehmine_tagizade@mail.ru*

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANÇILIQ MƏFKURƏSİNİN GƏNC NƏSLİN TƏRBİYƏSİNDƏ ROLU

**Xülasə**

Məqalədə müstəqil Azərbaycan Respublikasının bərpası uğrunda xalqımızın nəyə qadir olduğunu, şərəfli mübarizə yolunu, dünya dövlətləri sırasında layiqli yer tutmaq əzmini nümayiş etdirən fədakarlığı təhlilə cəlb olunur. Xalqın XX əsrin sonunda əlverişli tarixi şəraitdə milli-etnik soykökünə qayıdışı, əsrlər boyu əxz etdiyi milli-mənəvi dəyərlər və düşüncə sisteminə söykənərək özünüməxsusluğunu mühafizə etməsində Heydər Əliyev şəxsiyyətinin fövqəladə tarixi missiyası öyrənilir. Ümummilli liderimizin milli-mənəvi dəyərlərin, milli ruhun qorunması, kadrların milliləşdirilməsi, azərbaycançılıq ideologiyasının sistem halına salınması istiqamətində həyata keçirdiyi mühüm tədbirlərin əhəmiyyətinin gənclər arasında təbliği məsələsi məqalədə hərtərəfli araşdırılır. Ulu öndərin azərbaycançılıq məfkurəsinin gənc nəslin tərbiyəsində rolu nəzərə alınaraq bu sahədə müvafiq təklif və tövsiyələr verilir.

***Açar sözlər:*** *siyasi lider, tarixi şəxsiyyət, mənəvi dəyərlər, milli ideologiya, vətənpərvərlik, rəşadətli ordu, müzəffər əsgər*

## Giriş

*XX əsrdə Azərbaycan xalqının tarixində iz buraxmış nadir şəxsiyyət Heydər Əliyev, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında, azərbaycanlıların istiqlal təfəkküründə milli dövlətçilik düşüncəsini, yüzilliyin 70-ci illərindən başlamaqla əsrin sonunda müstəqil Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşdurmuşdur. Ümummilli lider məhz həmin illərdə milli-mənəvi dəyərlərin, milli ruhun qorunması, kadrların milliləşdirilməsi, azərbaycançılıq ideologiyasının sistem halına salınması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirmişdir. Ulu öndərin hələ Sovet hakimiyyəti illərində ölkəyə rəhbərlik etdiyi dönəmdə respublikanın ictimai-siyasi və sosial-iqtisadi, eləcə də cəmiyyətin milli-mənəvi və intellektual-mədəni yüksəlişi istiqamətində həyata keçirdiyi tədbirlər xalqın milli şüurunun oyanışına mühüm təsir göstərmişdir. Şübhəsiz ki, hələ o dövrdə uzaqgörənliklə uğurla həyata keçirilən bu məqsədyönlü tədbirlər olmasaydı, müstəqil Azərbaycanın suverenliyi və bugünki inkişafı qeyri-mümkün olardı.*

*Çoxəsrlik tarixi mücadilənin yekunu kimi milli dövlətçiliyini bərpa edən, azadlığa qovuşan Azərbaycan xalqının inkişaf yolunun və ideologiyasının formalaşması da məhz ulu öndər*

*Heydər Əliyevin müstəqil respublikamıza rəhbərliyi dövrünə təsadüf edir. Bütün ruhu, qanı, canı ilə özünü azərbaycanlı sayan ümummilli lider cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlər görərək ümumxalq birliyinin dərin politoloji və nəzəri əsaslarını irəli sürmüşdür. Təqdirəlayiq haldır ki, böyük şəxsiyyət Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində təşəkkül tapıb inkişaf etmiş azərbaycançılıq məfkurəsinin müxtəlif komponentlərini birləşdirməklə, onu mütəşəkkil konsepsiyaya çevirərək suveren dövlət siyasətinin elmi-fəlsəfi və sosial-ideoloji əsasına çevirmişdir. Məhz Heydər Əliyev dühasının səyi nəticəsində azərbaycançılıq mahiyyətcə real məzmun daşıyaraq praktikada realizə imkanları qazanmışdır.*

*Hazırda Azərbaycanın münəvvər gəncliyinin tərbiyəsi və dünyagörüşünün formalaşmasında xalqımızın ümummilli lideri, dünya səviyyəli siyasi xadim, çoxəsrlik dövlətçilik tariximizdə yeni parlaq səhifə açan nadir və bənzərsiz şəxsiyyət Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin mühüm əhəmiyyəti vardır. Tarixin qat-qat dərinləşən yaddaşında əbədi iz qoymaq hər insana nəsib olmayan böyük xoşbəxtlikdir ki, bu da yalnız Uca Tanrının Heydər Əliyev kimi dahi şəxsiyyətlərin qismətinə yazdığı müstəsna taledir. Bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin formalaşmasına və inkişafına həsr etmiş bu böyük şəxsiyyətin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir. Azərbaycanda müstəqil dövlət təsisatlarının yaradılması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin qurulması, milli-mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanması, ilk konstitusiyanın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi prosesinin müvəffəqiyyətli həlli məhz ümummilli liderimiz Heydər Əliyevin xidmətləridir.*

Bu gün böyük fəxarət hissi ilə bütün dünya azərbaycanlılarını öz ətrafına toplamağa və möhkəm əsaslarla birləşdirməyə istiqamətlənmiş azərbaycançılıq ideologiyası, xalqın milli özünüdərk hissinin inkişafı və minillik tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplərə söykənir. Milli məfkurə müstəqil dövlətçilik ənənələrinin davam etdirilməsi, gücləndirilməsi, real siyasi amilə çevrilməsi ilə demokratik və vətəndaş cəmiyyəti şəraitində Azərbaycan Respublikasının inkişafında mühüm xüsusiyyətlərdən birini təşkil edir. Ulu öndərimizin vətənpərvər fəaliyyətinin nəticəsi olaraq respublikada milli ruhlu ziyalı təbəqəsi formalaşmışdır. Böyük strateq Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti-quruculuq tədbirləri, habelə bir neçə onillikdən sonra müstəqillik əldə edəcək respublikamızın gələcəyinə hesablanmış digər məqsədyönlü addımları ilə özünün ümummilli lider obrazını yaratmış, tarix isə böyük öndərin bu statusunu bütün mərhələlərdə qorumuşdur. *"60-cı illərədək Azərbaycan aqrar ölkəsi kimi tanınmış, onun əsas sənaye mənbəyi neft olmuşdur. Lakin məhz Heydər Əliyev hakimiyyətinin ilk illərindən qəti addımlar atmaqla respublikaya olan bu münasibəti dəyişməyə nail olmuşdur"* [4, s.379]. Belə ki, qısa müddət ərzində həm yüngül, həm də ağır sənaye inkişaf etmiş, bir sıra zavod və fabriklər istifadəyə verilmişdir. Yaradılmış yeni iş yerləri əsasında insanların rifah halı daha da yaxşılaşmışdır.

Heydər Əliyev o illərdə respublikanı nəhəng tikinti meydançasına çevirmək, irimiqyaslı obyektlərin, strateji əhəmiyyətli sənaye müəssisələrinin inşasına xüsusi əhəmiyyət verməklə yanaşı, bir sıra yeni təhsil ocaqları, o cümlədən Cəmşid Naxçıvanski adına hərbi məktəbi yaratmışdır. Bu hadisə azərbaycanlıların döyüş ruhunun inkişaf etdirilməsində və hərbi vətənpərvərlik hissinin güclənməsində mühüm rol oynamışdır. Şübhə yoxdur ki, ordu quruculuğunda bu məktəbin rolu böyükdür. Respublikamız müstəqillik əldə etdikdən sonra hərbi liseyin məzunları rəşadətli ordumuzun yaranmasında, vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizədə və 44 günlük "Dəmir yumruq" əməliyyatında Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən Müharibəsində qələbənin qazanılmasında həmişə ön cəbhədə olmuşlar.

Maraqlıdır ki, hazırda dünya analitiklərinin böyük önəm verdiyi milli mədəniyyətin

yayılması siyasətini Heydər Əliyev hələ Sovet dövründə özünəməxsus tərzdə həyata keçirmişdir. Çünki Ulu öndər, Azərbaycanı dünyada məhz milli dəyərləri, tarixi, mədəniyyət özəlliyi ilə tanıtmağı üstün tutmuşdur. Məhz onun təşəbbüsü və dəstəyi ilə ölkənin məşhur şairləri, yazıçıları, musiqiçiləri, müğənniləri, bəstəkarları və artistləri dünyanın ayrı-ayrı ölkələrində çıxış etmişlər. Əlbəttə ki, burada mühüm bir siyasi məqam diqqəti cəlb edir ki, o da Azərbaycanı beynəlxalq miqyasda layiqincə tanıtmaqdır.

Tarixi prosesləri diqqətlə izlədikdə məlum olur ki, ümummili lider Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövrü Azərbaycan tarixinə siyasi, sosial-iqtisadi və mədəni yüksəliş dövrü kimi daxil olaraq xalqın milli mənlik şüurunun, müstəqillik ideallarının oyanışına güclü təkan vermişdir. *"Ulu öndər hələ o dövrlərdən milli inkişafın yeganə yolunu xalqın yüksək təhsil almasında, maariflənməsində görmüş, respublikada elmin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. O, yaxşı analiz etməyi bacarmışdır ki, cəmiyyətin tərəqqisinə, elmin, mədəniyyətin inkişafına təsir göstərən ən qüdrətli vasitələrdən biri də təhsildir"* [2, s.85]. Heydər Əliyev şəxsiyyətinin böyüklüyü məhz ondan ibarətdir ki, o, bütün fəaliyyəti boyu bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, cəmiyyətdə yüksək bilikli, intellektual və elitar təbəqənin formalaşmasına çalışmışdır.

Tarixi təcrübə təsdiq edir ki, dövlət müstəqilliyinin qorunub saxlanılması onun əldə olunmasından daha ağrılı və çətin prosesdir. Belə bir ziddiyyətli və mürəkkəb mərhələdə dövlətin xilası məhz vətənpərvər liderlərdən asılı olur. 1991-ci ildə Azərbaycan özünün dövlət müstəqilliyini elan etsə də, bu, əslində, 1993-cü ilin ortalarına qədər formal xarakter daşımışdır. Ulu öndərin 1993-cü ilin oktyabrında dövlət başçısı seçilməsindən sonra müstəqil Azərbaycanın hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi daha da sürətlənmişdir. Ümummilli lider ilk növbədə, ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmış, qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirilmiş, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edilmişdir. Dövlət çevrilişlərinin qarşısı alınmış, Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas olmuşdur. Müstəqil dövlətimizin ərazi bütövlüyünün bərpası və Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısının alınması, ölkənin müstəqilliyinin qorunub saxlanması üçün ordu quruculuğu istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

XX yüzilliyin 90-cı illərinin ortalarından etibarən ictimai quruluşun dəyişikliyi və meydana çıxardığı çətinliklər şəraitində Ulu öndər respublikanın siyasi və sosial-iqtisadi həyatında qarşıda duran strateji hədəfləri və əsas vəzifələri düzgün müəyyən etmişdir. Bütün bunların nəticəsidir ki, qlobal dünyanın aparıcı və inkişaf etmiş dövlətlərinin çoxillik siyasi və iqtisadi təcrübəsində uğurla sınaqdan çıxmış və xalqın rufahının yüksəldilməsinə müsbət təsir göstərmiş inkişaf kursu əsasında Azərbaycanda uyğun idarəetmə modeli yaranmışdır. O, qısa müddətdə özəl mülkiyyətçiliyə, sahibkarlığa, sərbəst rəqabətə meydan açan, liberallığı özündə ehtiva edən, sosialyönümlü mahiyyət daşıyan, habelə xarici iqtisadi əlaqələrin gücləndirilməsi və münbit biznes mühitinin formalaşdırılması yolu ilə ölkəyə investisiya axınını stimullaşdıran müasir innovativ inkişaf modelinin praktik surətdə gerçəkləşdirilməsinə nail olmuşdur. Böyük siyasi xadim Heydər Əliyev hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü çıxışlarında hər zaman vurğulamış, vətəndaşlara göstərilən hüquqi yardım səviyyəsinin müntəzəm surətdə artırılmasının əsas təşəbbüskarı kimi çıxış etmişdir.

Bütün mənalı həyatını ölkəmizin tərəqqisinə, insanların rifahının yaxşılaşdırılmasına həsr edən Ümummilli liderimiz ailənin cəmiyyətdəki rolunu xüsusi olaraq belə qeyd etmişdir: *"Ailə dəyərləri, ailə ənənələri, milli mənəvi dəyərlərimizə sədaqət, uşaqların müasir səviyyədə tərbiyəsi mühüm əhəmiyyət kəsb edir"* [5, s.97]. O, ailədə ananın rolunu yüksək qiymətləndirmişdir: *"...hər bir insan dünyada həyatına görə, bütün varlığına görə anaya borcludur"* [5, s.97]. Həqiqətən, insan yalnız oxuyub təhsil aldığı məktəbdə, çalışdığı kollektivdə deyil, həmçinin böyüyüb boya-başa çatdığı ailədə formalaşır. Hər bir ailədə tərbiyə alan insan,

bütövlükdə dünyaya təsir edə bilir və onun təməlini təşkil edir. Ona görə də, bu sosial təsisatın qorunması və müdafiə edilməsi hamımızın vəzifə borcudur. Biz bu vəzifələri yerinə yetirməklə, ulu öndərin ruhunu da şad etmiş oluruq. Uşaqların sağlamlığı, onların yaxşı təhsil və təlim - tərbiyə alması, Vətən və xalq üçün gərəkli övladlar kimi böyüməsi ümummilli liderin daim diqqətində olmuşdur. *"Mən həyatımın, bu günümün, gələcəyimin xoşbəxtliyini məhz uşaqlara qayğıda, diqqətdə görürəm"* [5, s.98] deyən Dahi şəxsiyyətin rəhbərliyi ilə müstəqillik illərində ölkəmizdə dövlət uşaq siyasəti yeni forma və məzmun qazanmış, bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır. O, fəxrlə vurğulamışdır: *"Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır"* [5, s.98]. Beləliklə, bütün bu mühüm məqamlar, Ulu öndərin hazırda uğurla davam etdirilən uşaq və gənclər siyasətinin əsas məxzini təşkil edir.

Müxtəlif elmi-fəlsəfi və ictimai-siyasi baxışlara görə, azərbaycançılıq xalqın milli soykökünü və mədəni-mənəvi dəyərlərini qorumaq, inkişaf etdirmək və beynəlxalq səviyyədə ümumbəşəri ideyalarla inteqrasiyasını təmin etmək üçün əsas ideologiyadır. Xalqımızın milli-mənəvi dəyərlərini həm müdafiə etməyi, həm də qoruyub saxlamağı bacaran, dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdirən azərbaycançılıq ideologiyası ölkədə vətəndaş birliyi və vahid sosium üçün uğurlu təməldir. *"Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq"* [1, s.90] deyən Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur.

Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində dövlətin qarşısında duran vəzifələri, onların Azərbaycana münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, habelə azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiyadır. Azərbaycançılıq millətindən asılı olmayaraq, özünü azərbaycanlı sayan vətəndaşların həmrəyliyi üçün möhkəm istinad mənbəyi, ideoloji bünövrədir. Bu ideologiyanın pozitiv xarakteri həm də bütün dünyaya səpələnmiş 50 milyondan artıq azərbaycanlını vahid ideallar naminə səfərbər etmək qüdrəti ilə müəyyən olunur. Milli-mənəvi, islami-əxlaqi, dünyəvi-humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və avropaçılıq meyillərini, tarixi təkamüldə varislik və tərəqqiçiliyi, ünsiyyət birliyini ahəngdar şəkildə ehtiva edən azərbaycançılıq ideologiyası məhz buna görə də müxtəlif coğrafi regionlarda, sosial-siyasi sistemlərdə, mədəni mühitlərdə formalaşmış diasporumuz üçün cəlbedicidir.

Azərbaycançılığı şərtləndirən ən mühüm amillərdən biri də milli ənənədir. *"Milli düşüncə sisteminin genetik qaynağı olan azərbaycançılığın inkişaf stimulyatoru da məhz ənənədir. Ənənə uzun əsrlərin sınağından keçərək tarixi təcrübəni yığır, xalqın müdrikliyi, onun mənəvi mədəniyyəti və s. amillər bu anlayışda ifadə olunur. O, keçmişlə gələcəyi əlaqələndirir, etnokulturoloji mövcudluğu qoruyur"* [3, s.109]. Bu ənənələr xalqın keçdiyi zəngin tarixi yolun mütərəqqi yaşam təcrübəsini özündə qoruyub saxlayır. Deməli, azərbaycançılıq ideologiyası həm də xalqın tarixən tapındığı mütərəqqi ənənələri gələcək nəsillərə ötürən mənəvi körpüdür. Azərbaycançılığın gücü, eyni zamanda, fərdi maraq və meyilləri dövlət siyasəti ilə birləşdirmək, xalqın milli-mədəni eyniyyətini qoruyub saxlamaq imkanları ilə ölçülür.

Dövlətçilik hisslərinə malik olmayan xalq milli dövlətini inkişaf etdirə bilməz. Bu mənada, azərbaycançılıq ideologiyası milləti, xalqı, dövləti qəlbən sevməyi, onun naminə yorulmadan çalışmağı bütün mahiyyəti ilə təşviq edir. Xalqın milli varlığını ifadə edən rəmzlərə, adət-ənənələrə, ali mənəvi dəyərlərə yüksək sədaqət, ana dilinə məhəbbət, bəşəri ideallara hörmət azərbaycançılığın milli mahiyyətini açmaqla yanaşı, onun humanist səciyyə daşıdığını

göstərir. Azərbaycançılığın əsasında yer alan ünsiyyət birliyi isə vahid ana dilimiz vasitəsilə həyata keçirilir. Azərbaycan dili milliliyin ifadə vasitəsi olduğu üçün azərbaycançılıq ideologiyasının komponenti kimi çıxış edir.

Ulu öndər Heydər Əliyevin möhkəm təməllər üzərində əsasını qoyduğu balanslaşdırılmış xarici siyasət uzaq hədəflərə hesablanmış strateji fəaliyyət konsepsiyası olmaqla, müstəqil Azərbaycanın beynəlxalq arenada nüfuz və mövqelərinin güclənməsinə, ümummilli problemlərinin həllinə yönəlmişdir. İnamla deyə bilərik ki, bu siyasət 2003-cü ilin oktyabrından Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı – cənab İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilir. Ulu öndər Heydər Əliyevin demokratik dövlətçilik strategiyasını ləyaqətlə davam etdirən Azərbaycan Prezidenti müəyyənləşdirilmiş möhkəm ənənələr üzərində özü də yeni bir dövlətçilik məktəbinin banisinə çevrilmişdir. Cənab İlham Əliyev respublikamızı uğurlu innovativ inkişaf yoluna çıxarmaqla, Cənubi Qafqaz bölgəsində həyata keçirilən qlobal enerji-kommunikasiya layihələrinin başlıca təminatçısına çevrilmişdir.

Xalqa layiqli xidmət göstərən Müzəffər Ali Baş Komandanımız 20 ildir ki, öz əməli işində ölkənin bütün fəaliyyət sahələrində inkişaf prioritetlərini və gələcək perspektivləri düzgün müəyyən etmişdir. cənab Prezident xalqın dəstəyi ilə, vətəndaşların hüquqları, mənafeyi və konstitusion azadlıqlarının yüksək səviyyədə təminatına istiqamətlənmiş demokratik idarəçilik siyasətini bu gün də uğurla davam etdirir. Respublikamız hazırda inkişafının elə mərhələsindədir ki, qazanılmış makroiqtisadi nailiyyətlər cəmiyyət həyatının ən müxtəlif sahələrində tərəqqi və intibaha, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğuna xidmət edən, hər bir vətəndaşın həyatında kardinal dəyişikliklərlə müşayiət olunan islahatları əzmlə gerçəkləşdirmək imkanı yaradır. Prezident İlham Əliyevin rəhbərliyi altında inamla irəliləyərək Avratlantik məkana inteqrasiya kursunu davam etdirən, qlobal enerji və kommunikasiya layihələrinin mərkəzinə çevrilən, Ümumi Daxili Məhsulun artım tempinə görə dünyanın lider dövlətləri sırasında yer tutan respublikamızda xalqın inamlı sabahı baxımından strateji əhəmiyyət daşıyan demokratikləşmə prosesinin sürətləndirilməsi xüsusi diqqət mərkəzindədir.

Bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva öz geniş fəaliyyəti ilə beynəlxalq aləmdə Azərbaycan qadınının nüfuzunu daha da yüksəklərə qaldırır. Fəxrlə deyə bilərik ki, onun simasında dünya dövlətlərinə dərin bilik və intellekt sahibi olan gözəl ziyalı, peşəkar siyasətçi, humanist Azərbaycan qadını obrazı təqdim olunur. Mehriban xanımın gördüyü işlərin mühüm göstəricisi Heydər Əliyev Fondunun timsalında əks olunub. 19 illik fəaliyyəti dövründə Fond Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə ümummilli lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasını və digər mühüm işlərin icrasını təmin edir. *"Fond Azərbaycan xalqının öz böyük siyasətçisi Heydər Əliyevin xatirəsinə ehtiramını ifadə etmək arzusu və istəyinin nəticəsidir, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək zərurətidir"* [4, s.483]. Ümummilli liderin zəngin irsinin daha dərindən, hərtərəfli öyrənilməsi, onun yaratdığı milli dövlətçilik və azərbaycançılıq ideyaları və ölkə mədəniyyətinin geniş təbliği Heydər Əliyev siyasətinə verilən önəmin göstəricisidir.

Ötən hər il bir daha təsdiq edir ki, sözün hər mənasında, böyük və ibrətamiz həyat yaşamış ümummilli lider Heydər Əliyevin ideya dünyasının, təməlini qoyduğu siyasi kursun, strateji inkişaf xəttinin ömrü çox uzaq gələcəyə hesablanıb. Yaxın tarixə nəzər salanda bir daha şahid oluruq ki, Heydər Əliyev dühasının xalqı, vətəni yolunda etdiyi fədakarlıqlar, göstərdiyi xidmətlər, atdığı addımlar unudula bilməz. Çünki onun xatirəsini, gördüyü işləri, xalqımız qarşısındakı xidmətlərini yaddan çıxarmaq mümkün deyil. Ulu öndər bütün fəaliyyəti boyu qabaqcıl və mütərəqqi qüvvələrə arxa, dayaq olmuş, xalqı ardınca aparmışdır. Bu gün xalqımız ümummilli liderin siyasi varisi – yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını dərindən bilən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşmişdir.

Qürur mənbəyimizdir ki, hazırda Azərbaycanda yüksək elmi biliyə, intellektual səviyyəyə, vətənpərvərlik hissinə və milli düşüncəyə malik gənc nəsil formalaşıb. Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi həyatında rolu günü-gündən artır. Respublikamızda mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb. Gənclər də öz növbəsində dövlət qayğısını daim hiss edərək nailiyyətləri ilə onlara göstərilən etimadı layiqincə doğrultmağa çalışırlar. Belə yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini səfərbər edir, Vətənin inkişafı üçün səylə çalışır, öz siyasətində onlara arxalanan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyirlər. Şübhəsiz ki,bütün bunlar gənclərin mənəvi inkişafı, vətənə məhəbbət hissinin aşılanması, dünyanın nüfuzlu ali məktəblərində təhsili və sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində dövlət tərəfindən görülən məqsədyönlü və sistemli işlərin nəticəsini bariz sübut edən mühüm faktdır.

**Nəticə**

*Tədqiqata yekun vuraraq belə bir nəticəyə gəlmək olar ki, azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı olan dahi şəxsiyyət Heydər Əliyev irsinin gənclər arasında geniş təbliğ olunması, hazırda sosial xidmət müəssisələrinin qarşısında duran əsas vəzifələrdən biridir. Bu səbəbdən, qarşıya qoyulmuş vəzifələrin icrası məqsədilə gənclərin iştirakı ilə aşağıdakı bir sıra vacib kütləvi tədbirlərin həyata keçirilməsi tövsiyə olunur:*

- *Ulu öndərin "Müstəqilliyimiz əbədidir" çoxcildliyini, digər əsərləri və onun haqqında çap olunmuş yeni nəşrləri vahid fondda komplektləşdirmək;*
- *Fonda daxil olmuş yeni ədəbiyyatı soraq-biblioqrafiya aparatı ilə təmin etmək və elektron informasiya-axtarış sistemində yerləşdirmək;*
- *Ümummilli liderin zəngin həyat və ictimai-siyasi fəaliyyətini əks etdirən müxtəlif elektron məlumat bazaları və virtual sərgilər hazırlamaq;*
- *Dahi şəxsiyyətə həsr olunmuş nəfis nüsxəli yeni kitab sərgisi, fotostend, kitabxana plakatı və albomlarından ibarət guşələr təşkil etmək;*
- *Əlamətdar və tarixi günlərdə, yubiley və anım tədbirlərində Ulu öndərə həsr edilmiş ədəbi-bədii kompozisiya, dəyirmi masa, yeni kitab təqdimatı və digər kütləvi tədbirlər təşkil etmək;*
- *Heydər Əliyev irsini əks etdirən eksponotlara virtual ekskursiyalar təşkil etmək.*

*Beləliklə, Ümummilli liderin azərbaycançılıq məfkurəsi, rəşadətli ordumuzun qəhramanlığı, 2020-ci ildə 44 günlük Vətən Müharibəsi dövründə əsgər və zabitlərimizin şücaəti və müstəqil dövlətçilik ənənələrimizin gənclər tərəfindən dərindən öyrənilməsi, mənimsənilməsi və hərtərəfli təbliğ olunması məqsədilə müvafiq sosial institutlar (kitabxana, muzey, təhsil müəssisəsi, mədəniyyət ocağı və s.) tərəfindən qeyd etdiyimiz tövsiyələrin nəzərə alınmasıyla müfəssəl və məzmunlu tədbirlər planının hazırlanması zəruridir.*

**Ədəbiyyat siyahısı:**

1. Cavadov, A. Milli mənəvi dəyərlər və azərbaycançılıq / A.Cavadov. – Bakı: TUNA, – 2020. – 200 s.
2. Cəfərov, N. Azərbaycançılıq ideologiyasının etnoqrafik əsasları / N.Cəfərov, V.Sərdarov, A.Cəfərov. – Bakı: Elm və təhsil, – 2016. – 214 s.
3. Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq: toplu / İdeya müəl. İ.Həbibbəyli ; elmi red. İ.Məmmədzadə. – Bakı: Elm və təhsil, – 2020. – 448 s.
4. Mirzəzadə, R. Azərbaycançılıq və vətənpərvərlik məfkurəsi / R.Mirzəzadə. – Bakı:

Zərdabi, – 2016. – 664 s.
5. Şəmsizadə, N. Azərbaycançılıq: Azərbaycan xalqının milli ideologiyası / N.Şəmsizadə. – Tehran: Bilik yayım, – 2007. – 135 s.
6. Tağıyev, Ş. Yeniyetmələrdə Azərbaycançılıq ideologiyasının formalaşdırılması üzrə işin sistemi: pedaq. ü. fəlsəfə d-ru avtoreferatı / Ş.Tağıyev. – Naxçıvan: n.y., – 2022. – 28 s.

**Tahmina Taghiyeva**

**The role of the great leader Heydar Aliyev's ideology of Azerbaijanism in education of young generation**

The article analyzes what our people are capable of for the restoration of the independent Republic of Azerbaijan, the way of honorable struggle, and the selflessness that demonstrates the determination to take a worthy place among the nations of the world. The extraordinary historical mission of the personality of Heydar Aliyev is studied in the return of the people to their national-ethnic origins under favorable historical conditions at the end of the 20th century, and in protecting their individuality based on the national-moral values and thought system that they have cultivated for centuries. In the article, the issue of promoting the importance of important measures implemented by the national leader in the direction of protecting national moral values, national spirit, nationalizing personnel, and making the ideology of Azerbaijaniism into a system is thoroughly investigated in the article. Taking into account the role of our great leader's ideology of Azerbaijaniism in the education of the young generation, relevant suggestions and recommendations are given in this field.

***Key words:*** *political leader, historical figure, moral values, national ideology, patriotism, brave army, victorious soldier.*

Tarix üzrə fəlsəfə doktoru, dosent
**Nigar Babaxanova** tərəfindən çapa tövsiyə olunmuşdur.